**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN**

**ZAQATALA filialı**

FAKÜLTƏ: İqtisadiyyat və menecment departamenti

BÖLMƏ: İqtisadiyyat və idarəetmə

İXTİSAS: Turizm işinin təşkili

Müdafiəyə buraxılır:

«____» «_____» 2025-ci il

Bölmə rəhbəri:______________

**BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ**

# BURAXILIŞ İŞİ

**MÖVZU: İCMA ƏSASLI TURİZM VƏ YERLİ İQTİSADİYYATLARA TƏSİRİ**

**QRUP: TT12-21**

**TƏLƏBƏ: Əliyeva Kainat Əli qızı**

**ELMİ RƏHBƏR: UNEC doktorantı, b/m Ülkər İsfəndiyarova Fizuli qızı**

**ZAQATALA-2025**

## Mündəricat

**Giriş ......................................................................................................... 3**

**Fəsil I. İcma əsasli turizmin nəzəri əsasları............................................................ 5**

1.1 İcma əsaslı turizm anlayışı və əhəmiyyəti ........................................................ 5

1.2 İcma əsaslı turizmin xarakterik xüsusiyyətləri.................................................. 11

**Fəsil II. İcma əsaslı turizmin yerli iqtisadiyatlara təsiri........................................ 14**

2.1 İcma əsaslı turizmin yerli iqtisadiyyatlara təsirinin nəzəri yanaşmaları və modelləri................................................................................................................ 14

2.2 Azərbaycanda icma əsaslı turizmin mövcud vəziyyətinin təhlili..................... 23

**Fəsil III.İcma əsaslı turizmin gələcək inkişaf perspektivləri................................ 29**

3.1 İcma əsaslı turizmin tətbiqində yaranan çətinliklər........................................... 29

3.2 İcma əsaslı turizmin tətbiqi ilə bağlı beynəlxalq təcrübə və Azərbaycanda inkişaf perspektivləri................................................................................................ 37

**Nəticə və təkliflər...................................................................................................... 44**

**İstifadə edilmiş ədəbiyyat........................................................................................ 46**

# Giriş

Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədləri (DİM) çərçivəsində turizmin, xüsusilə də sosial inklüzivlik və yerli icmaların rifahının artırılması baxımından roluna daha çox diqqət yetirilir. Bu kontekstdə icma əsaslı turizm (İƏT) modeli, yalnız bir iqtisadi fəaliyyət növü deyil, həm də sosial ədaləti, ekoloji dayanıqlılığı və mədəni irsin qorunmasını təşviq edən kompleks bir inkişaf mexanizmi kimi dəyərləndirilir.

**Mövzunun aktuallığı** həm qlobal miqyasda, həm də Azərbaycan kontekstində özünü göstərir. 2023-cü ildə UNWTO-nun dərc etdiyi hesabatda göstərilir ki, dayanıqlı və yerli icma əsaslı turizm layihələri ən çox dəstəklənən turizm formalarından biri olmuşdur. Azərbaycan reallığında isə bu model, kənd və dağlıq ərazilərdə iqtisadi şaxələndirmənin təmin olunması, regionların inkişaf etdirilməsi və yerli icmaların potensialının səfərbər olunması baxımından mühüm bir alternativ kimi çıxış edir. Dövlət Turizm Agentliyinin və Azərbaycan Turizm Bürosunun 2023 və 2024-cü illər üzrə hesabatlarında da İƏT modellərinin genişləndirilməsi strateji məqsəd kimi göstərilmişdir.

**Tədqiqatın predmeti** icma əsaslı turizmin hüquqi-institusional tənzimlənməsi, onun iqtisadi və sosial təsirlərinin öyrənilməsi və bu təsirlərin necə daha səmərəli və ədalətli şəkildə bölüşdürülə biləcəyidir. Tədqiqatın obyekti isə Azərbaycanda icma əsaslı turizmin tətbiq olunduğu və potensial daşıyan regionlar- xüsusilə Şəki-Zaqatala iqtisadi rayonu və bu regionlarda yaşayan yerli icmalardır.

**Tədqiqatın nəzəri-metodoloji bazası,** həm klassik, həm də müasir elmi yanaşmaların sintezinə əsaslanır. Turizmə sosial yanaşmanı əsaslandıran Sosial Mübadilə Nəzəriyyəsi (Ap, 1992), İƏT-in gücləndirmə çərçivəsi kimi tanınan Scheyvens (1999) modeli, iştirakçılığın səviyyələrini izah edən Arnsteinin pilləkən modeli (1969), yerli icmaların öz resursları üzərində səlahiyyətini əsaslandıran Putnamın sosial kapital konsepsiyası (2000) və dövlət-özəl-icma əməkdaşlığını

vurğulayan Getz və Jamal (1995) turizm əməkdaşlığı modeli bu işin nəzəri təməlini təşkil edir. Bununla yanaşı Liu və digərlərinin (2024), Oltean və Carayannisin (2023) post-pandemiya dövründə İƏT-in çevikliyi və davamlı inkişafla əlaqəsi barədə tədqiqatları işin çağdaş elmi dayaqlarını gücləndirmişdir.

**Tədqiqatın informasiya bazası:**Tədqiqatda yalnız ikincili məlumatlardan istifadə olunmuşdur. Dövlət Turizm Agentliyi, Dövlət Statistika Komitəsi, UNDP və USAID kimi beynəlxalq və milli qurumların hesabatları, həmçinin 2025-ci ildə UNEC Tələbə Tədqiqatları Jurnalında dərc olunmuş empirik sorğu nəticələri əsasında formalaşdırılmışdır.

**Tədqiqatın metodologiyası** qarışıq yanaşmanı əhatə edir: həm keyfiyyət, həm də kəmiyyət məlumatları üzərində qurulmuş təhlil aparılmışdır. Sistemli təhlil, müqayisəli analiz, SWOT qiymətləndirmə və tematik təhlil üsullarından istifadə olunmuşdur. Yerli icma üzvləri ilə aparılmış sorğuların nəticələri, İƏT-in real praktikada necə işlədiyini və hansı sahələrdə təkmilləşdirilməyə ehtiyac olduğunu empirik olaraq göstərmişdir.

**Tədqiqat işinin strukturu:** Buraxılış işi üç əsas fəsildən ibarətdir. Birinci fəsildə, İƏT-in konseptual və nəzəri əsasları sistemli şəkildə izah olunur, davamlı inkişaf prinsipləri ilə əlaqələndirilir. İkinci fəsildə, İƏT-in yerli iqtisadiyyata təsiri, nəzəri modellər və Azərbaycanın regionları üzrə empirik təhlillə qiymətləndirilir. Bu fəsildə həm də post-pandemiya dövrünün təsiri, gender bərabərliyi, gənclərin rolu və sosial inklüzivlik məsələləri vurğulanır. Üçüncü fəsildə, İƏT-in tətbiqi zamanı ortaya çıxan praktiki və institusional çətinliklər, beynəlxalq təcrübələrin işıqlandırılması və Azərbaycanın regional siyasətinə inteqrasiya imkanları ətraflı araşdırılır. İşin sonunda isə mövzunun nəticələri ümumiləşdirilir və konkret tövsiyələr irəli sürülür.

Nəticə etibarilə, bu tədqiqat yalnız akademik baxımdan deyil, həm də praktiki siyasət baxımından yerli iqtisadiyyatın gücləndirilməsi, sosial ədalətin təşviqi və dayanıqlı turizmin inkişafı üçün əhəmiyyətli töhfə vermək məqsədini daşıyır.

# Fəsil I. İcma əsasli turizmin nəzəri əsaslar

## 1.1 İcma əsaslı turizm anlayışı və əhəmiyyəti.

Turizm sahəsində 1970-ci illərin sonları və 1980-ci illərin əvvəllərindən etibarən müşahidə olunan sürətli, plansız və nəzarətsiz inkişaf prosesi, eyni zamanda ətraf mühitə və cəmiyyətə təsir edən mənfi nəticələr doğurmuşdur. Bu vəziyyət turizmin uzunmüddətli davamlılığının vacibliyini ortaya qoymuş və bu istiqamətdə geniş müzakirələrə yol açmışdır (Avcıkurt, 2009: 43). Aparılan elmi tədqiqatlar və müzakirələr nəticəsində, 1990-cı illərin əvvəlindən başlayaraq turizmin yaratdığı kütləvi neqativ təsirləri azaltmaq məqsədilə alternativ və yerli yönümlü turizm modelləri inkişaf etdirilməyə başlanmışdır (Choi və Sırakaya, 2006; Goodwin və Santilli, 2009; Demers, 2011; Giampiccoli və Kalis, 2012). Bu modellər arasında ekoturizm, yoxsulluqla mübarizəyə yönəlik turizm, məsuliyyətli turizm, icma əsaslı turizm (İƏT), könüllü turizm və ədalətli turizm kimi yanaşmalar xüsusi yer tutur. Hər bir yanaşma davamlı inkişaf çərçivəsində yoxsulluğun azaldılması, ətraf mühitin qorunması, insan hüquqlarına hörmət, demokratik idarəetmə və yaxşı idarəçilik prinsiplərinə əsaslanır (Tasci və d., 2013: 6).

Turizmin ətraf mühiti qoruması və icmanın inkişafına verdiyi töhfələrin daha geniş müzakir olunduğu bu optimist dövr ekoturizm və icma əsaslı turizmin (İƏT) alternativ turizm növləri olaraq yüksəlməsinə səbəb oldu. Bu növlər ənənəvi kütləvi turizmə müqabil olaraq daha üstün alternativlər kimi qəbul edilirdi.

Veyn Bidvell Uiler bunu ən gözəl şəkildə ifadə etmişdir: "Səyahətçi turistdən, fərd qrupdan, ixtisaslaşmış operatorlar böyük şirkətlərdən, yerli yerləşdirmə beynəlxalq otel zəncirlərindən, kiçik böyükdən üstün - əsasən yaxşı pisə qarşı ... Bəlkə də həqiqi vəziyyət ən yaxşı şəkildə yaxşıların pislərə qarşı olan maskası kimi ifadə edilir…" (Wheeller, 1992)

Regina Aureliya Şeyvensin iddia etdiyi kimi, icma əsaslı turizmin əsas məqsədi ev sahibi icmanı iqtisadi, psixoloji, sosial və siyasi səviyyələrdə gücləndirməkdir (Scheyvens, 2002) .

Brohman isə İƏT-nin ən geniş tərifini təqdim etmişdir: "İcma əsaslı turizm inkişafı, yerli əhalinin iştirakını gücləndirməyə və əhalinin geniş kütləsinin iqtisadi, sosial və mədəni rifahını təşviq etməyə yönəlmişdir. Bu yanaşma turizmin müxtəlif formalarının yerli iqtisadiyyatın digər sahələri ilə uyğunluğunu; inkişafın keyfiyyətini, həm mədəni, həm də ətraf mühitə uyğunluğunu qarşısına məqsəd qoyur. Eyni zamanda icmanın və onun sakinlərinin müxtəlif ehtiyaclarını, maraqlarını və potensiallarını nəzərə alacaq balanslı və harmonik bir yanaşma modeli təklif edir." (Brohman, 1996)

Birləşmiş Millətlər Təşkilatının Dünya Turizm Təşkilatı (UNWTO) davamlı turizmin yeni məhsul və xidmətlərin inkişafı üçün daha geniş imkanlar yaratdığını vurğulayaraq, onun iqtisadi inkişaf və yoxsulluğun azaldılması istiqamətində mühüm rol oynaya biləcəyini bildirir (Manyara və Jones, 2007: 628). Davamlı turizm çərçivəsində icma əsaslı turizm (İƏT) layihələri də, turizm destinasiyaları və yerli icmaların inkişafına fayda verdiyi üçün müxtəlif beynəlxalq təşkilatlar tərəfindən dəstəklənməkdədir.

Davamlı turizmin inkişafına dair yanaşmalar, xüsusilə az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə, yerli əhalinin iqtisadiyyatı dəstəkləyərək kənd ərazilərində yoxsulluğun azaldılması məqsədini güdür. Bu yanaşma, yerli iqtisadiyyatın inkişafını turizm sektorunun gücləndirilməsi ilə təmin etməyə yönəlmiş milli planlar və siyasətlərin hazırlanmasını təşviq edir (Akunaay, Nelson və Singleton, 2003: 7). Son otuz ildə, turizmin inkişafında və dayanıqlılığın təmin olunmasında yerli cəmiyyətlər əsas bir iştirakçı olaraq ön plana çıxmışdır (Murphy, 1985; Suansri, 2003). Xüsusilə inkişaf etməkdə olan ölkələrdə, 1990-cı illərdən etibarən, turizmin inkişafını daha dayanıqlı və mənfəətli etmək məqsədilə cəmiyyətin iştirakını nəzərə

alan bir yanaşma qəbul edilmişdir (Timothy, 1999; Tosun, 2000; Okazaki, 2008). Bu yanaşma, turizm inkişafı ilə bağlı qərarların qəbul edilməsində yerli əhalinin aktiv şəkildə iştirakını önə çıxaran bir modeldir (Akdu, 2009: 32).

Bir destinasiya üçün turizmin inkişafı yerli cəmiyyətin turizm planlamasında və idarə olunmasında yüksək səviyyədə iştirak etməsi, digər maraqlı tərəflərlə əməkdaşlıq etməsi, təbii və mədəni turistik cəlbedicilikləri qoruması və gələcək nəsillərə ötürməsi ilə mümkündür (Taşcı et al., 2013). Eyni zamanda, turizmdən əldə olunan gəlirin və mənfəətlərin bütün cəmiyyət üzvləri arasında ədalətli şəkildə paylanması vacibdir. Yalnız müəyyən şəxslərin bu mənfəətlərdən faydalanması, cəmiyyətdə gərginliklərə və qarşıdurmalara səbəb ola bilər, buna görə də bütün cəmiyyətin turizm fəaliyyətlərinə fəal iştirak etməsi lazımdır (Dixey, 2005; Kibicho, 2008). Buna görə də, turizm sektorunun inkişafından əldə olunan faydaların yerli cəmiyyət daxilində qalması üçün, bu sahənin cəmiyyətin öz tərəfindən idarə olunması, mülkiyyətinin sahiblik edilməsi və nəzarətin cəmiyyətin əlində olması vacibdir (Rozemeijer, 2001; Vajirakachorn, 2011). Eyni zamanda, yerli əhali turizmin inkişafından fayda görmədikdə və ya bu inkişafın gətirdiyi xərclər faydaları üstələdikdə, cəmiyyətin turizmə dəstək vermə ehtimalı azalır (Perdue, Long və Allen, 1990; Ap, 1992; Gursoy, Yolal, Ribeiro və Netto, 2016; Ko və Steward, 2005). Bu səbəbdən, turizm inkişafının bütün mərhələlərinin yerli cəmiyyətin daxil edilməsi və idarə olunması önəmlidir (Eagles, McCool, Stephen və Haynes, 2002: 46-48).

Cəmiyyət iştirakına əsaslanan yanaşma inkişaf etmiş ölkələrdə daha geniş şəkildə tətbiq edilsə də, inkişaf etməkdə olan ölkələrdə bu yanaşmanın tətbiqi daha məhduddur (Li, 2006: 133). Tosun bu ölkələrdə cəmiyyətin iştirak etdiyi planlama proseslərinin sosial, iqtisadi və siyasi şərtlərə bağlı olaraq inkişaf etdiyini vurğulayır. Nəticədə ölkələrin mövcud problemlərini həll etmədən turizm sahəsindəki iştirakçı yanaşmaların effektiv şəkildə tətbiqinin çətin olduğunu bildirir (Tosun, 2000: 613). Eyni zamanda, bir çox inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrdə, turizmin

inkişafı yerli liderlər tərəfindən şəxsi maraqlarını qorumağa yönəlmiş və cəmiyyətin maraqlarını önə çıxarmayan şəkildə həyata keçirilir, bu isə cəmiyyətin turizmə qatılımını və iştirakını mənfi yöndə təsir edir (Mohan, 2002; Scheyvens, 2002; Manyara və Jones, 2007; Onderwater, 2011). Bu yanaşmaların nəticəsi olaraq, yerli əhali, turizmdən nisbətən az gəlir əldə edir və bununla bağlı sosial bərabərsizliklər meydana gəlir, bu isə cəmiyyətdə narazılıqlara və sosial gərginliklərə yol açır (Garg, 2002; Ashley və Goodwin, 2007; Goodwin və Santilli, 2009; Mitchell və Muckosy, 2008; Kim, Park və Phandanouvong, 2014).

İcma əsaslı turizm anlayışı, alternativ inkişaf yanaşmaları ilə bağlı olmaqla yanaşı, davamlılıq, iştirakçılıq, yerli icmaların gücləndirilməsi və özünəinam prinsiplərini özündə birləşdirən bir konsepsiya kimi meydana çıxmışdır (Goodwin və Santilli, 2009; Giampiccoli və Kalis, 2012). Bu yanaşma ətraf mühitin qorunması ilə yerli icmaların ehtiyacları və inkişaf prioritetləri arasında tarazlıq yaradaraq, uzunmüddətli davamlı həll yolu təqdim edir. İcma əsaslı turizm eyni zamanda yerli iqtisadi faydaların artırılmasını, təbii və mədəni dəyərlərin qorunmasını, yerli icma üzvlərinin həyat səviyyəsinin yüksəldilməsini və turistlər üçün daha keyfiyyətli təcrübə təmin edilməsini hədəfləyir (Choi və Sırakaya, 2006).

***İcma əsaslı turizmin əhəmiyyəti.*** Turizmin davamlı şəkildə inkişaf etdirilməsində yerli icmanın rolu danılmazdır (Swarbrooke, 1999). Çünki məhz yerli əhali ilk növbədə yaşadığı bölgədə turizmin həm müsbət, həm də mənfi təsirlərindən birbaşa təsirlənir (Gursoy və Rutherford, 2004; Kibicho, 2008). Lakin xüsusilə az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə yerli əhalinin öz həyatlarına və gələcəklərinə təsir edən turizm fəaliyyətlərinin planlaşdırılmasında və inkişafında çox az söz haqqına malik olduqları müşahidə olunur. Bu zaman turizm inkişafı əsasən dövrün turizm meylləri, turizm şirkətlərinin təşəbbüsləri, qeyri-hökumət təşkilatlarının yanaşmaları, hökumət və ya yerli idarəetmə qurumlarının qərarları ilə formalaşır (Pinel, 1998:1). Bu baxımdan, yerli insanların yaşadıqları bölgənin

inkişafında söz sahibi olmaları və özlərini bu prosesin ayrılmaz hissəsi kimi görmələri, turizmin həmin bölgədə mənimsənilməsi, dəstəklənməsi və davamlılığı üçün olduqca vacibdir (Özdemir və Kervankıran, 2011:4).

İnkişaf imkanlarının məhdud olduğu və yoxsul bölgələrdə yerli iqtisadiyyatı şaxələndirmək üçün alternativ bir fürsət təqdim edən bu model (Manyara və Jones, 2007: 628), xüsusilə qadınlar və gənclər kimi cəmiyyətin daha həssas və imkansız təbəqələrinin iqtisadi, sosial və siyasi baxımdan güclənməsinə dəstək verir (López-Guzmán, Sánchez-Cañizares və Pavón, 2011: 70; Giampiccoli və Kalis, 2012: 175). Bu turizm növü əsasən inkişaf səviyyəsi zəif olan və iqtisadi cəhətdən geridə qalmış bölgələrdə tətbiq edilir. Burada əsas məqsəd ənənəvi məşğulluq sahələri olan kənd təsərrüfatı, balıqçılıq, heyvandarlıq, meşə təsərrüfatı, əl sənətkarlığı kimi fəaliyyətlərin yerini tutmaq deyil, əksinə İƏT bu sahələri tamamlayan əlavə iqtisadi fəaliyyət kimi dəyərləndirilməlidir (López-Guzmán və d., 2011: 81). Bu yolla həm fərdi, həm də ictimai formada iqtisadi güc formalaşdırılır, yerli istehsal, gəlir və məşğulluq səviyyəsi artır və eyni zamanda yerli mədəniyyət qorunaraq yaşadılır (Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu- IFAD, 2002: 4).

İƏT-in ən vacib xüsusiyyətlərindən biri onun yerli cəmiyyətin ehtiyacları, maraqları və imkanları əsasında formalaşmasıdır. Bu modeldə məqsəd təkcə iqtisadi gəlir əldə etmək deyil, həm də yerli icmanın sosial və mədəni inkişafına dəstək verməkdir. Beləliklə, İƏT həm iqtisadi baxımdan alternativ gəlir mənbəyi kimi çıxış edir, həm də yerli insanların öz resurslarını və potensialını dəyərləndirməsinə şərait yaradır (Suansri, 2003).

İƏT çərçivəsində həyata keçirilən fəaliyyətlər zamanı cəmiyyətin hər bir üzvünün iştirakçılığı təşviq edilir. Bu prosesdə yerli idarəetmə, qərarvermə və planlaşdırma ön planda tutulur. Çünki, turizmdə davamlı uğur yalnız yerli cəmiyyətin bu prosesə sahib çıxması və öz maraqlarını qoruması ilə mümkündür (Goodwin və Santilli, 2009). Eyni zamanda, bu yanaşma yerli insanların turizm fəaliyyətlərindən

uzunmüddətli fayda götürməsinə imkan verir və nəticədə iqtisadi müstəqilliklərini artırır.

Digər tərəfdən, İƏT-nin məqsədi yalnız fərdi mənfəət deyil, icma əsaslı kollektivi gücləndirməkdir. Bu səbəbdən turizm gəlirləri yalnız fərdlərə deyil, ümumi cəmiyyətin rifahına yönəldilən sosial layihələrdə istifadə edilməlidir. Buraya məktəblərin tikintisi, sağlamlıq xidmətlərinin yaxşılaşdırılması, infrastruktur layihələri və digər sosial faydalı təşəbbüslər daxildir (Asker və d., 2010; Tasci və d., 2013).

Əlavə olaraq, İƏT-nin uğurla tətbiq oluna bilməsi üçün təbii, mədəni və tarixi resursların qorunması vacibdir. Bu turizm modeli gələcək nəsillər üçün dayanıqlı inkişafı təmin etməyi hədəfləyir. Bu səbəbdən yerli icmalar arasında təbiətə və mədəni irsə hörmət hissi formalaşdırmaq, onları qorumağa təşviq etmək də vacib məsələlərdən biridir (IFAD, 2002).

Lokal cəmiyyətlər, özlərinin həyat şəraitini və mövcud yerli resursları daha yaxşı bildikləri üçün turizm inkişafı məsələlərində cəmiyyətin iştirakı son dərəcə vacibdir (Tosun, 2006). Cəmiyyətin hər bir üzvünün qərar qəbul etmə proseslərinə bərabər şəkildə daxil olması, həmçinin inkişafın ümumi məsuliyyətinin bütün maraqlı tərəflər arasında paylaşılması prinsipi İƏT-in əsas prinsiplərindən biridir. Nəticədə bu turizm modeli cəmiyyətin mənfəətlərinin ədalətli şəkildə bölüşdürülməsini və bu inkişafdan faydaların bərabər paylanmasını təmin etməyə çalışır (Taşcı və d., 2013; Sharifuddin və d., 2014). Başqa sözlə desək, bu yanaşma cəmiyyət üçün faydalı olan məsələlərdə daha doğru qərarlar qəbul etməyə, maraqlı tərəflər arasında əlaqəni gücləndirməyə və nəticə etibarilə inkişafın davamlılığını təmin etməyə yönəlir (Aref, 2011: 21).

Nəticə etibarilə, İƏT sadəcə iqtisadi gəlir deyil, eyni zamanda cəmiyyətin öz gücünü tanıması, mədəniyyətini qoruyaraq inkişaf etdirməsi və davamlı rifah üçün bir alət kimi çıxış edir. İcmanın özündə qərarvermə və iştirak prinsipləri

möhkəmləndikcə, bu turizm modeli bölgənin sosial-iqtisadi inkişafına daha böyük töhfə verməyə davam edir.

### 1.2 İcma əsaslı turizmin xarakterik xüsusiyyətləri.

Son əlli ildə dünyada baş verən iqtisadi, sosial və texnoloji inkişaf turizm anlayışının qavranılmasında və təcrübədə əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Ənənəvi turist növündən fərqli olaraq meydana çıxan post-turist tipi daha təcrübəli, daha məlumatlıdır və səyahət etdiyi yerlər haqqında daha seçici davranır (Kalkınma Bakanlığı, 2014). Bu dəyişiklik və transformasiya turizm sektorunda təkcə turist sayının artması və turizm gəlirlərində yüksəliş kimi kəmiyyət göstəricilərinə deyil, eyni zamanda turizmə olan tələbatda və turist seçimlərində də özünü göstərmişdir (Nepuni, 2002; Yılmaz və Gürol, 2012; Aydın, 2012).

Xüsusilə nəzarətsiz və sürətli urbanizasiya və sənayeləşmə prosesi nəticəsində ətraf mühitin deqradasiyası, fiziki mühitin pozulması (Aydın, 2012; Kan və digərləri, 2012), intensiv iş rejimi, hava və səs-küy çirkliliyi, izdihamlı mühitdən uzaqlaşmaq istəyi (Yılmaz və Gürol, 2012), monoton iş şəraitindən qaçmaq meyli və insanların şəhər həyat tərzindən yorulmaları (Çeken və digərləri, 2012) şəhər sakinlərində təbiətə olan marağı artırmışdır. Bu istiqamətdə turizm sənayesindən daha böyük pay əldə etmək istəyən ölkələr alternativ turizm növlərini təqdim etməyi hədəfləmişlər (Uygur və Akdu, 2009).

Xüsusilə inkişaf etməkdə olan ölkələr, turizm sektorundan əldə olunan gəlirlərlə ölkənin iqtisadiyyatında artım təmin etmək məqsədilə bir sıra turizm siyasətləri inkişaf etdirirlər. Lakin bu siyasətlər hazırlanarkən bölgənin, yerli əhalinin və ümumilikdə cəmiyyətin gözləntiləri nəzərə alınmır, qərarlar mərkəzdən qəbul edilir. Çox vaxt bu siyasətlər, ərazinin turizm potensialını tam şəkildə təhlil etmədən və yerli icmaların da nəzərə alınmadan, ən qısa zamanda daha yüksək gəlir əldə etmək məqsədilə formalaşdırılır (Harris və Vogel, 2007). İƏT ənənəvi turizm növlərindən fərqli olaraq, daha fərqli xüsusiyyətlərə malik olan və inkişaf etməkdə olan ölkələrdə

ənənəvi turizmin mənfi təsirlərin aradan qaldırmaq və ya azaltmaq məqsədilə ortaya çıxmış bir turizm növüdür. Bu turizm növü, yerli cəmiyyətin sosial təşkilatı üçün uzunmüddətli bir strategiya olaraq mühüm rol oynayır (Hamzah və Khalifah, 2008; Mekongtourism.org, 2013). İƏT yerli cəmiyyətlərə diqqəti artirmaqla turizmin inkişafını, dayanıqlı turizm sektoru yaratmağı və bu prosesdə yerli əhalinin də iştirakını təmin etməyi hədəfləyir (Shahmirzadi, 2012).

İƏT yerli icmaları daxil edən, onların təbii və mədəni varlıqlarından faydalanan və bu ərazilərdə mövcud olan cazibədarlıqdan istifadə edən bir turizm növüdür (Nelson, 2003). Kütləvi turizmin tətbiq edildiyi bölgələrdə turistlər və yerli əhali arasında əlaqə minimuma enir. Bəzi turizm modelləri, xüsusilə "hər şey daxil" və "ultra hər şey daxil" kimi sistemlərdə fəaliyyət göstərən otellərdə qalan turistlər, təyinat yerinə çatdığı andan etibarən oteldən çıxmır və yerli əhali ilə heç bir əlaqə qurmur. İƏT daha geniş bir spektrda müxtəlif turizm modellərini tanımaq üçün istifadə olunsa da, adətən cəmiyyətin iştirakını təmin edir. Bu turizm növü turistlərin yerli icmaları ziyarət etməsi, onların mədəniyyəti və ətraf mühitləri barədə məlumat əldə etməsi və nəticədə inkişaf etməkdə olan ölkələrdə yerli icmalar üçün fayda yaratmağı hədəfləyir (Salazar, 2001; Lucchetti və Font, 2013).

Dixey (2005) və Gudvin və Santili (2009), icma əsaslı turizmi, "yerli cəmiyyətlər tərəfindən idarə edilən və ya onlara məxsus olan turizm növü olaraq, yalnız işçilərin deyil, cəmiyyətin bütün üzvlərinin iştirakını təmin edərək daha geniş ictimai fayda məqsədilə planlanan bir turizm modeli" kimi təsvir etmişlər. İƏT cəmiyyətin ehtiyaclarını müəyyənləşdirmək və qərar vermə prosesində daha çox iştirakçılari hərəkətə keçirmək, onları məsuliyyətli olmağa təşviq etmək məqsədini güdür (World Bank, 2013). İƏT kollektiv qərar qəbul etmə, məsuliyyət, mülkiyyət və faydaların təmin olunması prinsipləri ilə planlaşdırılmış, inkişaf etmiş, sahibkarlıq və cəmiyyət tərəfindən idarə olunan bir turizm növüdür. Bu model, həm turistlər, həm də yerli əhali üçün qarşılıqlı fayda təmin etmək məqsədini güdür. Bir tərəfdən turistlər

səyahət zamanı insanların bilgisinə, təbii və mədəni irsə maraq göstərərək zövq alır və bundan məmnuniyyət duyurlar; digər tərəfdən ev sahibləri, təbii və mədəni irsin qorunması və cəmiyyətin sosial rifahını artıran bir təcrübə əldə edirlər (Taşçı və d., 2013).

İƏT-in başlıca xüsusiyyətləri aşağıdakı kimi sıralanır (Tourism Concern, 2013):

Cədvəl 1.1. İƏT-in əsas fərqli xüsusiyyətləri

| | | |
|---|---|---|
| 1 | Planlaşdırma və idarəetmədə yerli cəmiyyətin iştirakı | Turizm fəaliyyətləri yerli əhalinin razılığı və iştirakı ilə həyata keçirilir, qərarların alınmasında onların fikirləri önəmli yer tutur. |
| 2 | Ədalətli gəlir bölgüsü | Turizm fəaliyyətlərindən əldə olunan gəlirin ədalətli şəkildə yerli icmalara qaytarılması təmin edilir və ideal olaraq bu gəlir, səhiyyə müəssisələri və məktəblər kimi sosial layihələrə də yönləndirilir |
| 3 | İcmanın xeyrinə yönəlmiş xidmət | Fərdi məqsədlərdən daha çox sosial fayda təmin etməyə yönəlmişdir |
| 4 | Ətraf mühitin dayanıqlılığına töhfə | Yerli əhalinin iştirakı ilə, təbii mühitin qorunması və dayanıqlılığının təmin edilməsi əsas məqsəd hesab olunur |
| 5 | Mədəniyyətə və sosial struktura hörmət | Yerli cəmiyyətin ənənəvi mədəniyyətinə və sosial quruluşuna hörmətlə yanaşır |
| 6 | Yerli cəmiyyətin zərərli təsirlərdən qorunması | Xüsusilə qərb mədəniyyətinin turizm vasitəsilə yaratdığı mənfi təsirlərdən yerli əhalini qorumağa çalışır və bu yöndə təsirli mexanizmlər təqdim edir |
| 7 | Mədəniyyət və ətraf mühitə təsirlərin azaldılması | Mədəniyyət və ətraf mühitə təsirlərin minimuma endirilməsi üçün qrupların sayı kiçik tutulur. |
| 8 | Turistlərə əvvəlcədən məlumat verilməsi | Səyahət öncəsi turistlərə, yerli cəmiyyətin mədəniyyəti və davranış qaydaları haqqında məlumat verilir. |
| 9 | Yerli əhalinin davranışları | Yerli əhali uyğunsuz və ya qeyri-etik hərəkətlərdən qaçır. |
| 10 | "Xeyir" demə haqqına hörmət | Yerli icmalar turizmi qəbul etmək və ya rədd etmək hüququna malikdirlər, əgər yerli əhali turistləri istəməzsə, buna hörmətlə yanaşılır. |

## Fəsil II. İcma əsaslı turizmin yerli iqtisadiyatlara təsiri.

## 2.1 İcma əsaslı turizmin yerli iqtisadiyyatlara təsirinin nəzəri yanaşmaları və modelləri.

Dünya Turizm Təşkilatının (UNWTO) məlumatına əsasən, 2016-cı il beynəlxalq turizmdə artımın ardıcıl yeddinci ili olmuş və turizm həmin il qlobal ixracda kimya və yanacaq sənayesindən sonra üçüncü yeri tutmuşdur (UNWTO, 2017). Turizm sektoru avtomobil və ərzaq məhsullarını geridə qoyaraq, bir çox ölkə üçün iqtisadi sabitliyin və müxtəlifləşmənin qarşısını almaq məqsədilə əsas dayaqlarından birinə çevrilmişdir. Bu, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr üçün xüsusilə önəmlidir. Bir çox hallarda, turizm bəzi ölkələrdə əsas ixrac sektoru statusunu daşıyır (UNWTO, 2017:6).

Mövcud sosial-iqtisadi reallıqlar və sürətli dəyişikliklər təşkilatlardan və sistemlərdən yeni biliklərə əsaslanan idarəetmə yanaşmalarına keçidi tələb edir (OECD, 2020).Bu da öz növbəsində, köhnə sistemlərin transformasiyasını və turizmin daha dayanıqlı, sosial cəhətdən ədalətli və ekoloji baxımdan məsuliyyətli şəkildə təşkilini tələb edir. Bu baxımdan, icma əsaslı turizm (İƏT) konsepsiyası mühüm aktuallıq kəsb edir. İƏT modeli, yerli icmaların turizm prosesinin mərkəzində durmasını və bu fəaliyyətlərdən birbaşa faydalanmasını nəzərdə tutur. Bu modelə əsasən, turizm yalnız iqtisadi gəlir deyil, eyni zamanda icmaların sosial və mədəni güclənməsini dəstəkləyən bir vasitə olmalıdır.

İcma əsaslı turizm ənənəvi və kütləvi turizmin mənfi təsirlərini aradan qaldırmaq məqsədilə formalaşdırılmış bir yanaşmadır (Mtapuri & Giampiccoli, 2017:2; Djou və digərləri, 2017:16). Yerli resurslara nəzarətin zəifləməsi və iqtisadi sızmalar kimi problemlərin qarşısını almağa yönəlmiş bu model, yoxsulluğun azaldılması və icmaların rifahının yüksəldilməsi üçün alternativ yol kimi qəbul edilir (Runyowa, 2017:2).

İƏT  modelinin uğurla tətbiqi üçün yalnız iqtisadi deyil, sosial və psixoloji gücləndirmə də vacib şərtlərdən biridir. Bu kontekstdə, Regina Scheyvens (1999)

tərəfindən təqdim edilən "gücləndirmə çərçivəsi" (Empowerment Framework) xüsusilə əhəmiyyətlidir. Müəllifə görə, turizmin icmalar üçün davamlı və real faydalar yaratması yalnız dörd əsas sahədə — iqtisadi, sosial, psixoloji və siyasi gücləndirmənin təmin olunması ilə mümkündür (Scheyvens, 1999).

İqtisadi gücləndirmə, əldə edilən gəlirin ədalətli şəkildə bölüşdürülməsini; sosial gücləndirmə, icma daxilində birgə əməkdaşlıq və etimadın artmasını; psixoloji gücləndirmə, özünəinamın və mədəni kimliyin möhkəmlənməsini; siyasi gücləndirmə isə, qərar qəbuletmədə yerli əhalinin fəal iştirakını nəzərdə tutur.

Ətraflı ədəbiyyat təhlili göstərir ki, icma əsaslı turizm təşəbbüsləri bir çox hallarda regionlarda məşğulluğun artırılması və alternativ gəlir mənbələrinin formalaşdırılmasına müsbət təsirlər göstərir. Akama (1996) və Liu (1994) kimi tədqiqatçılar göstərirlər ki, İƏT modeli yerli əhali üçün yeni iş yerləri, xidmət sahələri və mikro-sahibkarlıq imkanları yaradaraq, onların iqtisadi rifahına müsbət təsir göstərir. Məsələn, Yeni Zelandiyada Maori icmaları öz torpaq və resursları üzərində nəzarəti qoruyaraq, turizmdən əldə etdikləri gəlirlərlə həm iqtisadi müstəqilliklərini gücləndirir, həm də mədəni irslərini qoruyurlar (Ceballos-Lascurain, 1996).

Lakin İƏT-in iqtisadi təsirləri yalnız müsbət nəticələrlə məhdudlaşmır**.**Araşdırmalara görə, bəzi hallarda turizmdən əldə olunan gəlirlər yerli elita tərəfindən inhisara alına bilər ki, bu da sosial və iqtisadi qeyri-bərabərliyin artmasına gətirib çıxarır (Smith, 1996; Mansperger, 1995). Belə vəziyyətlərdə iqtisadi fayda yalnız kiçik bir qrupun əlinə keçdiyi üçün ümumi icma rifahı artmır, əksinə, sosial narazılıqlar yaranır. Bu fakt İcma Əsaslı Turizm (İƏT) təşəbbüslərində iqtisadi faydaların ədalətli şəkildə bölüşdürülməsinin vacibliyini önə çıxarır.İƏT modeli iqtisadiyyata təsiləri yalnız birbaşa məşğulluğun artması ilə kifayətlənmir. Belə ki həm də dolayı iqtisadi təsirlər, məsələn yerli məhsullara və xidmətlərə olan tələbin artması və bunun nəticəsində iqtisadi aktivliyin stimullaşdırıılması da baş verir. Lindberg və həmkarlarının (1996) araşdırmalarına əsasən, turistlərin yerli məhsullar-

o cümlədən ərzaq, nəqliyyat, sənətkarlıq və bələdçilik xidmətlərinə üstünlük verməsi, yerli sahibkar və istehsalçılar üçün əlavə gəlir imkanları yaradır. Bu, öz növbəsində, kənd təsərrüfatı, sənətkarlıq və kiçik sahibkarlıq sahələrinin turizmin təsiri ilə inkişafına təkan verir.

İƏT modeli zamanı həyata keçirilən ətraf mühitin dayanıqlılığı üçün qorunan ərazilərin yaradılması və təbiəti mühafizə tədbirləri bəzi hallarda yerli əhalinin məhsuldar torpaqlara və resurslara çıxışını məhdudlaşdırır. Belizdə aparılmış bir tədqiqatda göstərilmişdir ki, qorunan təbiət ərazilərinin yaxınlığında yaşayan əhalinin az hissəsi turizmdən birbaşa iqtisadi fayda əldə etmişdir, halbuki həmin ərazilər onların təsərrüfat fəaliyyətlərinə zərər vurmuşdur (Lindberg et al., 1996). Bu cür vəziyyətlərdə iqtisadi gücləndirmə yalnız seçilmiş fərdlər üçün mövcud olur, ümumi icma isə itkilərlə üzləşir.

Ekvador və Peru kimi Latın Amerikası ölkələrində İƏT təşəbbüsləri yerli resurslara əsaslanaraq alternativ iqtisadi model kimi inkişaf etdirilir. Segovia-Chiliguinga (2021) və Leon-Gomez (2021) öz tədqiqatlarında göstərirlər ki, bu bölgələrdə İƏT yalnız gəlir gətirməklə kifayətlənmir, həm də dövlət orqanları ilə icmalar arasında əməkdaşlığı gücləndirir, yerli qərarverməni təşviq edir və ekoloji davamlılığı qoruyur.Lakin, turizm inkişafı və yerli əhali arasında qərar qəbul etmə proseslərinin modelləri, hər bir destinasiya üçün fərqli ola bilər, çünki hər bir ərazinin turizm inkişaf səviyyəsi, ərazi xüsusiyyətləri və planlama üsulları fərqli ola bilər (Li, 2006: 133). Bu səbəbdən, Tosun (1999: 118), yerli cəmiyyətin turizm inkişafına daxil olmasının üç fərqli yolunu göstərir: öz-özünə qatılım, təkliflə qatılım və təzyiq yolu ilə qatılım.

COVID-19 pandemiyası İcma Əsaslı Turizm (İƏT) modellərinin davamlılığı və çevikliyinə dair yeni suallar doğurmuşdur. Bu kontekstdə Rodrigez-Jimenez və Martinez-Martinez (2021), pandemiyadan sonrakı dövrdə İƏT-i daha məsuliyyətli turizm forması kimi qiymətləndirərək, onu həm iqtisadi uyğunlaşma, həm də

icmaların dayanıqlılığını gücləndirən bir yanaşma kimi irəli sürmüşlər. Pandemiya şəraitində turizmdən asılı olan bölgələrdə yerli resurslara söykənən və icma idarəçiliyi ilə həyata keçirilən turizm fəaliyyətləri daha tez bərpa olunmuşdur.

Friedmanın (1992) gücləndirmə çərçivəsi İƏT-in iqtisadi təsirlərini dəyərləndirmək üçün mühüm nəzəri alətdir. Burada iqtisadi gücləndirmə yalnız gəlir əldə etməklə deyil, həm də bu gəlirin davamlılığı və ədalətli bölgüsü ilə müəyyən edilir. Əgər icma daxilindəki müxtəlif sosial qruplar (qadınlar, gənclər, marjinallaşmış şəxslər) bu faydalardan kənarda qalırsa, iqtisadi gücləndirmə prosesi yarımçıq qalır.

İƏT son illərdə xüsusilə inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafın dayanıqlı vasitəsi kimi daha çox diqqət cəlb etməyə başlamışdır. Bu yanaşma yerli icmaların turizm prosesində fəal iştirakını, qərarların qəbulu və faydaların ədalətli bölüşdürülməsini nəzərdə tutur. Yerli iqtisadiyyata təsirin ölçülməsi və anlaşılan formada təhlil edilməsi üçün isə müxtəlif nəzəri yanaşma və modellərdən istifadə olunur. Bu modellər həm nəzəriyyə baxımından əsaslandırılmışdır, həm də praktikada tətbiq edilə biləcək struktura malikdir.

Nəzəri modellər elmi araşdırmalarda reallığı anlamaq, onu təsvir etmək, gələcək tendensiyaları proqnozlaşdırmaq və sosial proseslərdə dəyişikliklər yaratmaq üçün əsas çərçivə rolunu oynayır (Babbie, 2020). Onlar mürəkkəb hadisələr arasındakı əlaqələri ümumiləşdirməyə və dərk etməyə imkan verir. De Oliveira-Santos (2017) nəzəri modelləri dörd qrupa ayırır:

1. xüsusi yanaşma modelləri,
2. əsas əlaqələrə əsaslanan modellər,
3. sistem yanaşmalı modellər
4. struktur modellər.

Bu təsnifatlar vasitəsilə turizm sahəsindəki fərqli modelləri qiymətləndirmək və onların tətbiq oluna biləcək sahələrini müəyyənləşdirmək mümkündür.

Bu sahədə ən çox istifadə olunan nəzəriyyələrdən biri Sosial Mübadilə Nəzəriyyəsidir (SET- Social Exchange Theory). Bu nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, insanlar və cəmiyyətlər bir fəaliyyətdən əldə edəcəkləri faydaları və üzləşəcəkləri mümkün xərcləri müqayisə edərək qərar verirlər. Turizm kontekstində bu o deməkdir ki, yerli icmalar turizmin gətirdiyi gəlir, yeni iş imkanları, infrastruktur inkişafı kimi müsbət tərəfləri sosial və ətraf mühitə təsiri, səs-küy, qiymət artımı kimi mənfi tərəflərlə müqayisə edərək, onu dəstəkləmək və ya imtina etməklə bağlı qərar verirlər. Ap (1992) bu nəzəriyyəni ilk dəfə turizm sahəsinə tətbiq etmiş və yerli əhalinin münasibətlərini bu çərçivədə izah etmişdir.

Sosial Mübadilə Nəzəriyyəsinə əsaslanan müxtəlif modellər işlənib hazırlanmışdır. Məsələn, Jurovski, Uysal və Williams (1997) belə bir model təklif etmişdir ki, burada insanların turizmə münasibətinə onların cəmiyyətə bağlılığı, iqtisadi mənfəət gözləntiləri, ətraf mühitə münasibəti və turizm resurslarından istifadəsi təsir edir. Bu model yerli icmanın turizmə olan münasibətini formalaşdıran sosial, iqtisadi və ekoloji amilləri nəzərə alır.

Daha sonra Gursoy və Rutherford (2004) bu çərçivəni genişləndirərək yeni model təklif etmişlər. Onlar turizmdən əldə edilən fayda və xərcləri beş əsas kateqoriyaya bölmüşlər: iqtisadi faydalar, sosial faydalar, mədəni faydalar, sosial xərclər və mədəni xərclər. Bu yanaşma göstərir ki, insanlar təkcə gəlir baxımından deyil, həm də mədəniyyət və sosial dəyərlər üzərindən turizmə münasibət formalaşdırırlar.

Nunkoo və Ramkissoon (2010) isə bu yanaşmanı daha da inkişaf etdirərək "İcma Dəstəyi Modeli"ni irəli sürmüşlər. Onların modelində yerli iqtisadiyyatdan və idarəetmədən məmnunluq, yerli siyasətdə iştirak və idarəetməyə etimad kimi faktorlar önə çəkilir. Bu model göstərir ki, insanlar yalnız turizmin nəticələrinə görə deyil, həm də prosesdə iştirak edib-etmədiklərinə əsasən turizmə dəstək verirlər. Bu yanaşma "aşağıdan-yuxarıya" (bottom-up) qərar qəbuletmə modelini vurğulayır.

Son illərdə Ekvadorda aparılan tədqiqatlar bu sahəyə yeni sistem yanaşmaları gətirmişdir. Bu modellərdə icma əsaslı turizm alt sistemlərdən ibarət kompleks bir idarəetmə strukturu kimi təqdim olunur. Bu yanaşmada dövlət-özəl tərəfdaşlığı, sosial sahibkarlıq, davamlılıq, innovasiya və yerli ehtiyaclara uyğunluq əsas meyarlar kimi qiymətləndirilir. Bu modelin effektivliyi Delphi metodu ilə, yəni ekspertlərin rəyinə əsaslanan sistemli qiymətləndirmə vasitəsilə yoxlanılmışdır.

Bundan əlavə De Oliveira-Santos (2020), Franco və digərləri (2021) kimi tədqiqatçılar tərəfindən irəli sürülən struktur modellər turizmi təkcə iqtisadi deyil, sosial və mədəni baxımdan da qiymətləndirməyə imkan verir. Bu modellər xüsusilə post-pandemiya dövründə turizmin dayanıqlı inkişafını təmin etmək üçün nəzərdə tutulmuşdur.

Qeyd etmək olar ki, nəzəri modellər turizmin icma və yerli iqtisadiyyata təsirini sistemli şəkildə anlamağa kömək edir. Bu modellər vasitəsilə yalnız mövcud vəziyyət izah olunmur, həm də gələcək üçün daha uğurlu turizm siyasətləri formalaşdırmaq mümkün olur. Onların ortaq cəhəti budur ki, hamısı yerli icmaların iştirakı və razılığının turizmin davamlı inkişafı üçün əsas şərt olduğunu vurğulayır. Aşağıda təqdim edilən nəzəri modellər icma əsaslı turizmin müxtəlif aspektlərini- iqtisadi, sosial, institusional və innovativ cəhətlərini əhatə etməklə, bu sahədə aparılan tədqiqatların əsas istiqamətlərini və nəticələrini bir-biri ilə əlaqəli şəkildə təqdim edir.

İlk növbədə, qavranılan təsirlər modeli İƏT-nin lokal icmalar tərəfindən necə qəbul edildiyini izah edir. Bu modelə əsasən, əhali turizmin iqtisadi, sosial və mədəni faydalarını yüksək dəyərləndirdikdə, bu fəaliyyətə dəstəkləri artır. Əgər turizm məşğulluq imkanları yaradır, yeni biznesləri stimullaşdırır, sosial infrastrukturun inkişafına töhfə verirsə, əhali tərəfindən qəbul edilir. Lakin turizmin torpaq qiymətlərinin artması, həyat xərclərinin yüksəlməsi, sosial konfliktlər və ətraf mühitə zərər kimi mənfi təsirləri qavranıldıqda, bu dəstək zəifləyir. Bu model göstərir ki,

yerli əhalinin turizmə olan münasibətini yönləndirən əsas amil onun verdiyi və ya verəcəyi düşünülən faydalardır (Ap və Crompton, 1993).

Bununla sıx bağlı olan icma məmnuniyyəti modeli isə əhalinin yaşadığı icma ilə bağlı ümumi məmnunluğunu və bunun turizmə münasibətə təsirini izah edir. Tədqiqatlar sübut edir ki, əgər insanlar öz icmalarında həyat keyfiyyətini yüksək qiymətləndirirlərsə və ictimai xidmətlərdən razıdırlarsa, onlar turizmə daha pozitiv yanaşırlar. Bu yanaşma turizmin yalnız iqtisadi deyil, eyni zamanda sosial rifaha təsir göstərdiyini vurğulayır və qavranılan təsirlər modelini sosial kontekstdə tamamlayır (Allen və d., 1993).

İcma məmnuniyyəti və qavranılan təsirlər yalnız şəxsi təcrübə ilə deyil, həm də institusional etibar ilə formalaşır. Bu model göstərir ki, insanlar dövlət orqanlarına, yerli özünüidarəetməyə və turizm təşkilatlarına güvəndikdə, turizm fəaliyyətlərinə daha çox dəstək verirlər. Etibarsızlıq isə əksinə, narahatlıq və müqavimət doğurur. Beləliklə, institusional etibar həm turizmin planlaşdırılmasında, həm də onun icmalar tərəfindən qəbul olunmasında həlledici rol oynayır (Nunkoo və Ramkissoon, 2011).

Bu üç yanaşmanın uğurlu tətbiqi üçün əhalinin aktiv şəkildə qərar qəbuletmə prosesində iştirakı vacibdir. İştirak və gücləndirmə modelləri, xüsusilə Arnsteinin "vətəndaş iştirakının pilləkəni" bu prosesi izah edir. İştirakın səviyyələri aşağı manipulyasiyadan başlayaraq yüksək səlahiyyətin ötürülməsi və nəzarətə qədər dəyişir. İcma əsaslı turizm çərçivəsində iştirak yalnız rəy bildirmək deyil, real güc sahibi olmaq, qərar qəbul etmək və öz resursları üzərində nəzarətə sahib olmaq mənasına gəlməlidir. Bu, icmaların sosial və iqtisadi gücləndirilməsini təmin edir və davamlı inkişafı mümkün edir (Arnstein, 1969).

İştirakın effektivliyi və dayanıqlılığı isə əksər hallarda icma daxilindəki sosial kapital ilə əlaqəlidir. Sosial kapital- qarşılıqlı güvən, şəbəkələşmə və kollektiv fəaliyyət potensialı İƏT-in uğuru üçün mühüm sosial baza rolunu oynayır. Bu model göstərir ki, güclü sosial əlaqələr və şəbəkələr, resursların paylaşımını asanlaşdırır,

birlik ruhunu gücləndirir və turizmin icmaya daha inklüziv şəkildə daxil olmasına şərait yaradır. Sosial kapital, həmçinin, iştirak və institusional etimad modellərinin praktiki əsaslarını formalaşdırır (Putnam, 2000).

Yuxarıda qeyd olunan bütün bu modellərin praktiki həyata keçirilməsi və bir-biri ilə koordinasiyası üçün turizm əməkdaşlığı modeli xüsusi önəm daşıyır. Getz və Jamal tərəfindən təklif olunan bu model, müxtəlif maraqlı tərəflərin- dövlət, özəl sektor, qeyri-hökumət təşkilatları və yerli icmalar  birgə qərar qəbuletmə prosesində iştirakını nəzərdə tutur. Əməkdaşlıq olmadan nə iştirak, nə sosial kapital, nə də institusional etibar formalaşa bilər. Bu modelin əsas mərhələləri ilkin şərtlərin müəyyənləşdirilməsi, ortaq problemlərin tanınması, istiqamətin təyin edilməsi, strukturlaşdırma və nəticələrin qiymətləndirilməsidir (Getz və Jamal, 1995).

Nəhayət, bütün bu yanaşmaların sistemli şəkildə əlaqələndirilməsi üçün Quintuple Helix modeli (Beşspiral modeli) təklif olunur. Bu model elm, iqtisadiyyat, ətraf  mühit, cəmiyyət və siyasət  kimi beş alt sistemin qarşılıqlı inteqrasiyasını nəzərdə tutur. Belə yanaşma yalnız iqtisadi fayda əldə etməyə deyil, eyni zamanda sosial rifahın artırılması, ekoloji tarazlığın qorunması və institusional dayanıqlığın gücləndirilməsinə yönəlib. Bu model, icma əsaslı turizmi sadəcə bir iqtisadi fəaliyyət deyil, geniş bir sosial-siyasi və mədəni inkişaf modeli kimi təqdim edir (Carayannis və Campbell, 2010).

Nəticə etibarilə bu modellər arasında qarşılıqlı əlaqələr mövcuddur. Qavranılan təsirlər və icma məmnuniyyəti sosial kapital və institusional etibarla güclənir; iştirak və əməkdaşlıq isə bu sistemin əsas dinamikasını təmin edir. Quintuple Helix modeli isə bu bütünlük içində strateji inkişafı idarə edən çətir konsepsiyası kimi çıxış edir.

Şəkil 2.1. Beşspiral modeli




Cədvəl 2.1. Nəzəri Modellərin müqayisə cədvəli

| Model | Fokus sahəsi | Əsas Müəlliflər | Fərqləndrici cəhət |
|---|---|---|---|
| Sosial Mübadilə Nəzəriyyəsi (SET) | İqtisadi və sosial fada/zərər balansı | Ap(1992), Jurowski et al.(1997) | Yerli əhalinin fayda-xərc analizinə əsaslanan münasibəti |
| Gücləndirmə Modeli | İqtisadi, sosial, psixoloji, siasi sahələr | Schevens (1999) | İcmaların çoxölçülü gücləndirilməsi |
| Qavranılan Təsirlər Modeli | Sosial və iqtisadi təsirlərin dəyərəndirilməsi | Ap & Crompton (1993) | Əhalinin turizmə münasibəti qavradığı fadalara əsaslanır |
| İcma Məmnuniyəti Modeli | Həyat keyfiyyəti və ictimai xidmətlər | Allen et al. (1993) | Yaşanılan mühitin turizmə münasibətə təsiri |
| İştirak Modeli( Arnstein pilləkəni) | İcmaların qərar qəbuletmədə iştirakı | Arnstein (1969) | İştirak səviyyələrinə görə güc bölgüsü |
| Sosial Kapital Modeli | Güvən, əlaqələr, birlik | Putnam (2000) | İcmadaxili sosial əlaqələrin İƏT uğuruna təsiri |
| Turizm Əəkdaşlığı Modeli | Çoxtərəfli iştirak və qərar qəbuletmə | Getz & Jamal (1995) | Dövlət- özəl- icma əməkdaşlığının koordinasiyası |
| Quintuple Helix Modeli | Sistem yanaşması- elm,iqtisadiyyat, ətraf mühit, cəmiyyət, siyasət | Carayannis & Campbell (2010) | Davamlı inkişaf üçün 5 sahənin inteqrasiyası |

## 2.2. Azərbaycanda icma əsaslı turizmin mövcud vəziyyətinin təhlili

İcma əsaslı turizm (İƏT) turizm fəaliyyətlərinin yerli icmalar tərəfindən təşkil olunub idarə edilməsi ilə xarakterizə olunan, iqtisadi, sosial və ekoloji dayanıqlı inkişafı təşviq edən bir yanaşmadır. Bu turizm modeli, yerli əhalinin turizmdən əldə olunan faydaların əsasını təşkil etməsini və mədəniyyətlərin, təbii resursların qorunmasını təmin etməyi hədəfləyir. İƏT, turistlərə əsl yerli həyat təcrübəsi təqdim etməklə, yerli cəmiyyətləri də bu fəaliyyətlərə daxil edir və iqtisadi cəhətdən fayda yaradır (United Nations World Tourism Organization, 2020).

Azərbaycanda icma əsaslı turizmin inkişafına səbəb olan amillər bir neçə faktorla əlaqəlidir. Azərbaycanın təbii zənginlikləri, dağlıq əraziləri, milli parkları, qədim kəndləri və mətbəx mədəniyyəti, bu sahənin inkişafı üçün əlverişli şərait yaradır. Lakin uzun illər ərzində, ölkədəki turizm sektoru əsasən iri şəhərlərdə - xüsusilə Bakı və ətrafında cəmlənmişdi. Bu isə kənd icmalarının turizm imkanlarından kənarda qalmasına səbəb olmuşdu.

İcma əsaslı turizmin Azərbaycanda inkişaf etməsi üçün ilkin addımlar 2000-ci illərin əvvəllərində beynəlxalq təşkilatların dəstəyi ilə atılmışdır. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) tərəfindən həyata keçirilən pilot layihələr bu təşəbbüsləri dəstəkləmişdir. Məsələn, Lahıc, Basqal, Qax, Şəki kimi bölgələrdə icma əsaslı turizmin təşviqi məqsədilə həyata keçirilən layihələr yerli əhalinin bu sektora daxil olmasını və təlimlər keçməsini hədəfləyirdi (UNDP Azerbaijan, 2019).

Bu layihələrin əsas məqsədi, yalnız turizmin təşviqi deyil, eyni zamanda kənd əhalisinin yoxsulluqdan qurtulmasına, gənclər və qadınların iqtisadi fəallığının artırılmasına, icmaların təşkilatlanma bacarıqlarının gücləndirilməsinə yönəlmişdir (USAID, 2015). Beləliklə, Azərbaycanda İƏT-in başlanğıcı həm sosial inkişafın, həm də turizmin regional yayılmasının mühüm bir aləti kimi qəbul edilmişdir.

Azərbaycanda icma əsaslı turizmin tətbiqi, xüsusilə kənd və dağlıq bölgələrdə inkişaf etmişdir. Bu modelin tətbiqi müxtəlif sahələrdə yerli icmaların təşəbbüsü ilə həyata keçirilmiş və həmçinin beynəlxalq və dövlət dəstəyi ilə bir sıra layihələr reallaşdırılmışdır. İƏT-in ölkə daxilində yayılması tədricən genişlənir və müxtəlif bölgələrdə fərqli formalarla özünü göstərir.

İcma əsaslı turizmin nümunələrindən biri, İsmayıllı rayonunun Lahıc qəsəbəsidir. Lahıc, misgərlik sənəti ilə tanınan və zəngin mədəni irsi olan bir kənddir. Burada turistlər həm yerli əl işlərini izləyir, həm də qonaq evlərində qalıb, kənd həyatını birbaşa təcrübə edirlər. Yerli sakinlər turistlərə misgərlik sənətinin sirlərini öyrədir və bəzən onların emalatxanalarında işləmələrinə imkan verir. Lahıc, İƏT-in əsas prinsiplərinə uyğun olaraq mədəni irsə və təbii resurslara dayalı bir turizm nümunəsidir (UNDP, 2019).

Bundan əlavə, Quba və Qusar bölgələrində də oxşar təşəbbüslər həyata keçirilir. Quba rayonunun Xınalıq kəndi, Qafqazın ən yüksək dağ kəndlərindən biri olaraq, həm təbiətinin gözəlliyi, həm də yerli adət-ənənələri ilə fərqlənir. Burada turistlər, yerli sakinlər tərəfindən idarə olunan qonaq evlərində qalır və kənd təsərrüfatı fəaliyyəti, mədəni tədbirlər və bələdçi xidmətlərindən yararlanırlar. Bu təcrübə, həm turistlərə unikal bir təcrübə təqdim edir, həm də kəndin iqtisadiyyatına müsbət təsir edir (Azərbaycan Turizm Bürosu, 2022).

Lənkəran, Astara və Lerik bölgələri də icma əsaslı turizmin inkişafında mühüm addımlar atmışdır. Bu bölgələrdə, xüsusən kənd həyatına dair turlar, çay plantasiyalarına ziyarətlər və milli mətbəxin tanıdılması ilə bağlı turizm təşəbbüsləri həyata keçirilir. Həmçinin, qadınların bu sahədə iştirakının artması, gender bərabərliyinə dəstək verən və yerli icmaların iqtisadi rifahını artıran bir aspektdir (Azərbaycan Turizm Bürosu, 2022).

Qəbələ, Oğuz və Şəki rayonlarında isə ailə turizmi modelləri üstünlük təşkil edir. Qonaqlar burada yerli ailələrdə qalır, onların gündəlik fəaliyyətlərinə qoşulurlar.

Bu modellər, kənd həyatının autentik nümayişini təmin etməklə yanaşı, eyni zamanda yerli icmalar üçün sabit gəlir mənbəyi yaradır (Azərbaycan Turizm Bürosu, 2023).

Rəsmi məlumatlara görə, icma əsaslı turizmə cəlb olunan kəndlərin sayı son beş ildə artmaqdadır. Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosu tərəfindən həyata keçirilən layihələr sayəsində, bir çox kəndlərdə qonaq evləri və turizm xidmətləri inkişaf etdirilmişdir. Bu layihələr, eyni zamanda regionlarda iqtisadi inkişafı və sosial rifahı təşviq edir (Azərbaycan Turizm Bürosu, 2023).

İcma əsaslı turizmin yerli iqtisadiyyata təsirinin öyrənilməsi məqsədilə tədqiqatda ikincili empirik məlumatlardan və keyfiyyət/kəmiyyət təhlil metodlarından istifadə olunmuşdur. Məlumat mənbəyi kimi UNEC Tələbə Tədqiqatları Jurnalında (2025) dərc olunmuş “Azərbaycanda turizmin inkişafında icmanın rolu: Şəki və Zaqatala rayonları kontekstində” adlı araşdırmadan istifadə edilmişdir. Tədqiqatda qarışıq metod (mixed-methods approach) tətbiq olunmuşdur .Təhlil zamanı həm əvvəlki tədqiqat nəticələrindən (UNEC Tələbə Tədqiqatları Jurnalı, 2025) əldə olunan məlumatlar ikincili məlumat kimi təhlilə cəlb olunmuş, nəticələr əsasında tematik analiz və SWOT təhlili aparılmışdır.

Əlavə olaraq, bölgə üzrə aparılmış digər elmi məqalələr və rəsmi mənbələr (Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosu və s.) təhlildə kontekstin genişləndirilməsi məqsədilə istifadə edilmişdir.

Mənbə olaraq istifadə olunan UNEC Tələbə Tədqiqatları Jurnalı, (2025) Bu tədqiqatda hər iki rayonda turizmlə məşğul olan 21 yerli icma nümayəndəsi ilə 20 sualdan ibarət sorğu keçirilmişdir. Nəticələr təhlil edilmiş, hər iki rayonda yerli əhalinin turizmə yanaşması və turizmdən gözləntiləri qiymətləndirilmiş, icmanın turizmin inkişafında rolu və gələcək perspektivləri müəyyənləşdirilmişdir (Rüstəmova, 2025).

Araşdırmada bu məlumatlar əsasında deskriptiv statistika, tematik analiz və SWOT təhlili aparılmışdır. Məqsəd, icma üzvlərinin turizm sahəsinə yanaşmasını,

qarşılaşdıqları iqtisadi çətinlikləri və bu sahədən əldə etdikləri potensial gəlirləri qiymətləndirməkdir.

Şəki və Zaqatala rayonlarında turizmin inkişafında icmanın rolunu araşdırmaq üçün 21 nəfər icma nümayəndəsi 20 sual üzrə anket-sorğu doldurmuşdur. Sorğuda iştirak edənlərin 57.14 %-i Şəki, 42.86 %-i yəni 9 nəfəri Zaqatala rayonundandır. İştirakçıların 61.9%-i ali, 23.8%-i orta ixtisas təhsilli, 9.54 %-i orta təhsilli (peşə təhsili), 4.76%-i isə ibtidai təhsillidir. Sorğuda iştirak edən icma üzvlərinin 57.14%-i kişi, 42.9%-i qadın olmaqla, turizm sahəsində təhsili olanlar 71.4%, təhsili olmadan xidmət göstərənlər isə 28.6% təşkil edir. Bu sualın soruşulmasında məqsəd turizmdə iştirakın kortəbii olması və ya təhsil almaqla karyera nərdivanının bir hissəsi olmasını aydınlaşdırmaqdır.(Rüstəmova, 2025)

**Tematik Təhlil.** Mənbə: UNEC Tələbə Tədqiqatları Jurnalında 2025-ci ildə dərc olunmuş Şəki və Zaqatala rayonlarında 21 icma nümayəndəsi ilə aparılmış sorğu əsasında. (UNEC Tələbə Tədqiqatları Jurnalı, 2025)

***1. İqtisadi faydalar***

- Turistlərə ev kirayəsi, kənd məhsullarının satışı və əl işləri vasitəsilə əlavə gəlir.(Xüsusilə Zaqatala rayonunun Car kəndində yerli əhalinin əsas gəlir mənbələrindən biri turizmdir)
- Qadınların evdəki resurslarla gəlir əldə etmə imkanları.

***2. Maneələr***

- Maliyyə vəsaiti çatışmazlığı (evlərin bərpası, təmir, reklam çatışmazlığı).
- Turizm fəaliyyətləri üçün təlimlərin azlığı.

***3. Sosial və mədəni narahatlıqlar***

- İcma daxilində fikir ayrılığı.
- Mədəni dəyərlərin dəyişəcəyi qorxusu.

***4. Dövlət və tərəfdaş dəstəyi***

- Dövlət layihələrinə arxalanma.

- Sahibkar və QHT-lərin iştirakı azdır.

***5. Yerli idarəetmə istəyi***

- İştirakçılar özlərinin də qərarvermə prosesinə cəlb olunmasını istəyirlər.
- “Yuxarıdan-aşağıya” deyil, “aşağıdan-yuxarıya” yanaşma üstünlük təşkil edir.

**Sorğu əsasında müəyyən olunmuş əsas statistik nəticələr:**

***İqtisadi İmkanlar:***

- 13 nəfər (61.9%) turizmi gəlir mənbəyi kimi qiymətləndirib.
- 8 nəfər yeni iş yerlərinin açıldığını qeyd edib.
- 6 nəfər məşğulluğa təsir etdiyini göstərib.
- Cəmi 2 nəfər turizmin əhalinin həyat səviyyəsini yüksəltdiyini düşünür.

Şəkil 2.1. İcma turizminin iqtisadi imkanları.




***İqtisadi Çatışmazlıqlar:***

- 18 nəfər (85.7%) rayonda turizmlə əlaqəli olaraq qiymət artımını qeyd edib.
- Alıcılıq qabiliyyətinin azalması **isə** azlıqla (çox güman 1–2 nəfər) vurğulanıb.

Şəkil 2.2. İcma turizminin iqtisadi çatışmazlıqları




Bu tədqiqat nəticələri və bölmənin əvvəlində göstərilən digər mənbələrdən əldə olunan məlumatlar əsasında müəllif tərəfindən Azərbaycanda İƏT-in yerli iqtisadiyyata təsirinin SWOT təhlili aparılmış və aşağıdakı cədvəl şəklində ümumiləşdirilmişdir.

**Cədvəl 2.1. SWOT Təhlili: İƏT-in Yerli İqtisadiyyata Təsiri Kontekstində**

| **Güclü Tərəflər** | **Zəif Tərəflər** |
|---|---|
| Yerli məhsul və xidmətlərdən gəlir əldə edilməsi,( Turizm əhalinin 60%-dən çoxu üçün gəlir mənbəyidir) | Turizm bilik və bacarıqlarının azlığı, Yerlilərin bəziləri məşğulluq təsirini yetərli görmürlər |
| Ailələrin iqtisadi fəallığının artması (Yeni iş yerlərinin yaradılması- (38%) | İnfrastrukturun (yol, su, internet) kifayət qədər olmaması |
| Qadın və gənclərin iqtisadi proseslərə cəlb olunması | Maliyyə resurslarına çıxışın məhdudluğu |
| **İmkanlar** | **Təhlükələr** |
| Rəqəmsal platformalarla yerli xidmətlərin tanıdılması | Mədəni dəyərlərin sıradan çıxması riski, İcma daxilində sosial gərginlik və qeyri-bərabərlik |
| Dövlət və beynəlxalq dəstək mexanizmlərinin genişləndirilməsi | Turizmlə bağlı **qiymət artımı** (85% qeyd edib) |
| Ailəvi turizm modellərinin daha da yayılması | Ətraf mühitin pozulması və dağ kəndlərinin yüklənməsi |

## Fəsil III. İcma əsaslı turizmin gələcək inkişaf perspektivləri

### 3.1. İcma əsaslı turizmin tətbiqində yaranan çətinliklər

İcma əsaslı turizm (İƏT) son onilliklərdə davamlı inkişafın mühüm komponenti kimi qəbul olunmağa başlamışdır. Bu modelin əsas məqsədi yerli icmaların turizm fəaliyyətlərində aktiv iştirakını təmin etməklə onların iqtisadi, sosial və mədəni rifahını yüksəltməkdir. Bundan əlavə, İcma Əsaslı Turizm (İƏT) ətraf mühitin qorunması, yerli resursların səmərəli idarə olunması və regionların sosial-iqtisadi inteqrasiyasının gücləndirilməsi sahəsində də əhəmiyyətli potensiala malikdir (Scheyvens, 1999; Kiss, 2004). Bu model, inkişaf etməkdə olan ölkələrdə yerli icmaların öz resurslarına nəzarət etməsini və faydalardan birbaşa bəhrələnməsini təşviq etməklə, sosial ədalət və inklüziv inkişaf ideyasını gücləndirir. Bununla yanaşı, nəzərdə tutulan məqsədlərə çatmaq yolunda müxtəlif sistemli və praktik çətinliklər mövcuddur ki, bunlar həm konseptual, həm institusional, həm də sosial səviyyədə özünü göstərir və çox vaxt bir-biri ilə qarşılıqlı şəkildə əlaqəlidir.

İlk növbədə, nəzəri baxımdan İƏT konsepsiyası inklüziv və idealist görünməsinə baxmayaraq, onun praktik tətbiqində "icma" anlayışının qeyri-müəyyənliyi və çoxmənalılığı ciddi problemlər yaradır. "İcma" anlayışı tez-tez vahid məqsəd və maraq ətrafında formalaşmış sosial struktur kimi qəbul edilir, lakin əslində icmalar çoxsaylı fərdi, sosial və institusional maraqları əks etdirən müxtəlif qruplardan ibarət olur (Shirlow & Murtagh, 2004).Bu, qərar qəbuletmə prosesində qeyri-bərabər iştirak, daxili qarşıdurmalar və səlahiyyətlərin qeyri-şəffaf bölgüsü kimi problemlərə səbəb ola bilər. Qeyd edilməlidir ki, sosial strukturların daxilində genderə, yaşa və iqtisadi təbəqəyə görə dəyişən güc münasibətləri İƏT-nin ədalətli şəkildə həyata keçirilməsinə əngəl törədə bilər. Bəzən layihələrdə yalnız dominant qrupların maraqları nəzərə alınır, zəif sosial təbəqələr – qadınlar, gənclər, etnik və iqtisadi azlıqlar – isə bu proseslərdən kənarda qalır (Scheyvens, 2002). Bu isə "icma əsaslılıq" prinsipinin ruhuna ziddir və turizm təşəbbüslərinin sosial legitimliyini

zəiflədir. Digər tərəfdən, icmaların daxilində sosial kapitalın səviyyəsi, yəni qarşılıqlı etimad, kollektiv fəaliyyətə meyl və sosial şəbəkələrin gücü, İƏT layihələrinin uğuruna bilavasitə təsir edir.

Bundan əlavə, İƏT layihələrinin uğurla həyata keçirilməsi üçün icmaların təşkilatlanma səviyyəsi və institusional hazırlığı mühüm rol oynayır. Lakin bir çox hallarda icmaların daxili idarəetmə sistemləri zəifdir, struktur və resurs baxımından hazırlıqsızlıq müşahidə olunur. Bu isə qərarların qəbul olunmasında qeyri-effektivliyə, təşəbbüslərin davamlılığının təmin olunmamasına və nəticədə icmaların məyus olmasına səbəb ola bilər. İştirakçılıq modellərinin tətbiqi üçün vacib olan liderlik, sosial kapital və qərar qəbuletmə bacarıqları formalaşmayıbsa, təşəbbüslər yalnız formal xarakter daşıyır və ya gözlənilən sosial-iqtisadi faydanı təmin etmir (Chaskin, 2001). Çox zaman belə layihələrdə qərarvermə səlahiyyəti yerli icma üzvlərinə deyil, maliyyə və ya inzibati baxımdan layihəni idarə edən xarici aktorlara məxsus olur (Tosun, 2000).

Bu isə "aşağıdan yuxarıya" deyil, əksinə "yuxarıdan aşağıya" yönələn idarəetmə modelinin üstünlük təşkil etməsinə gətirib çıxarır. Nəticədə turizm təşəbbüsləri daha çox xarici tərəfdaşların və dövlət qurumlarının maraqlarına uyğun şəkildə formalaşır, yerli ehtiyaclar və dəyərlər isə arxa plana keçir. Belə layihələrin davamlılığı zəifləyir, çünki yerli əhali özünün iştirak etdiyi və sahibləndiyi prosesdə olmadığını hiss edir.

İƏT çərçivəsində ortaya çıxan digər mühüm çətinlik maraqlı tərəflər arasında koordinasiyanın zəifliyi və funksional rol bölgüsünün olmamasıdır. Əksər hallarda icmalar, yerli hökumətlər, özəl sektor, qeyri-hökumət təşkilatları (QHT) və donor qurumlar arasında effektiv əməkdaşlıq əlaqələri mövcud deyil. Bu isə həm planlaşdırma, həm də icra mərhələsində uyğunsuzluqlar, təkrarlanan təşəbbüslər və resursların səmərəsiz istifadəsi ilə nəticələnir (Jones və Botterill, 2006). Müxtəlif aktorlar arasında vəhdət olmadıqda, layihələrin məqsədləri bir-biri ilə toqquşur və bu

da ümumi uğura maneə yaradır. Eyni zamanda, icmaların turizmin hüquqi, maliyyə və texniki aspektləri üzrə bilik və təcrübəsi çox zaman yetərsiz olur. Turizm qanunvericiliyi, vergi rejimləri, investisiya təşviqləri və mülkiyyət hüquqları ilə bağlı məlumatsızlıq icmaların öz təşəbbüslərinə hüquqi və institusional əsas qazandırmasına mane olur. Nəticədə onlar turizm proseslərinə yalnız passiv müşahidəçi kimi yanaşır, real iştirak imkanları isə məhdudlaşır (Mitchell & Reid, 2001). Belə passiv iştirakçılıq isə yerli potensialın tam səfərbər edilməsinə imkan vermir və uzunmüddətli təsiri azaldır.

Bütün bu faktorlar göstərir ki, İƏT-nin uğurla həyata keçirilməsi üçün yalnız maddi resursların mövcudluğu və turizm potensialı kifayət etmir. Əsas məsələ icmalarda sosial kapitalın gücləndirilməsi, yerli iştirakçılığın hüquqi və institusional çərçivədə təmin edilməsi, idarəetmə və liderlik bacarıqlarının inkişaf etdirilməsidir. Bu amillər təmin edilmədikdə, İƏT modelləri sadəcə nəzəri konsepsiya olaraq qalır və real həyatda gözlənilən sosial-iqtisadi faydaları təqdim edə bilmir. Digər tərəfdən, layihələrin yerli xüsusiyyətlərə uyğunlaşdırılmaması və kontekstdən uzaq modellərlə tətbiqi də uğursuzluq riskini artırır.

İcma əsaslı turizmin tətbiqində qarşıya çıxan digər böyük çətinlik iqtisadi və maliyyə resurslarının məhdudluğu ilə bağlıdır. İcmaların əksəriyyəti turizm təşəbbüslərinə başlamaq və onları davamlı şəkildə idarə etmək üçün kifayət qədər ilkin kapitala, sabit maliyyə mənbələrinə və müasir maliyyə idarəçiliyi biliklərinə malik deyillər. Startap mərhələsində investisiya çətinliyi, risklərin yüksək olması və icma əsaslı fəaliyyətlərin çox zaman banklar və maliyyə institutları tərəfindən etibarlı kredit portfeli kimi dəyərləndirilməməsi layihələrin başlanğıcda tormozlanmasına səbəb olur. Bundan əlavə, mikro maliyyə mexanizmlərinin və subsidiya proqramlarının yetərsizliyi, yerli sahibkarlığın dəstəklənməsində qeyri-kafi institusional dəstək də maliyyə problemlərini dərinləşdirir. Bu şəraitdə bir çox İƏT

layihəsi ya ümumiyyətlə həyata keçirilmir, ya da reallaşdırılsa belə, iqtisadi səmərəlilik və gəlir gətirmə baxımından zəif qalır.

Üstəlik, yerli məhsul və xidmətlərin geniş bazara çıxarılması üçün tələb olunan logistik, nəqliyyat, infrastruktur və marketinq dəstəyi əksər hallarda kifayət etmir. Turizm məhsullarının bazarda rəqabət qabiliyyətli şəkildə tanıdılması üçün zəruri olan vizual təqdimat, brendinq, onlayn satış platformaları və digər kommersiya alətləri ya məlum deyil, ya da bu vasitələrə çıxış yoxdur (Manyara et al., 2006). Bu vəziyyət bir çox icma təşəbbüslərinin qısa müddətli mövcudluğuna və sonradan fəaliyyətlərini dayandırmalarına səbəb olur. Bu baxımdan, yalnız fiziki və maliyyə resursları deyil, həm də insan kapitalı, təlim və texniki bacarıqların yetərsizliyi İƏT-nin uzunmüddətli uğuruna əngəl yaradır.

İƏT-nin dayanıqlılığına təsir edən digər mühüm faktor isə xarici asılılıq və donor müdaxiləsidir. Bir çox hallarda İƏT layihələri beynəlxalq donor təşkilatları, inkişaf agentlikləri və ya qeyri-hökumət təşkilatları tərəfindən maliyyələşdirilir. Bu dəstək, ilkin mərhələdə icmalar üçün vacib stimullaşdırıcı rol oynasa da, davamlılıq prinsipləri və yerli ehtiyaclara uyğunlaşdırılmadıqda əks nəticələr doğurur. Çünki xarici donorlar tərəfindən irəli sürülən təşəbbüslər çox zaman yerli reallıqlardan uzaq olur və icmanın gündəlik ehtiyacları ilə uyğunlaşmır (Blumenthal, 2004). Bu zaman icmalar layihələri yalnız maddi dəstək üçün qəbul edir, lakin təşəbbüslərə sahiblik hissi və məsuliyyət formalaşmır. Bu isə iştirakçılığın səviyyəsini zəiflədir, layihənin icma tərəfindən davam etdirilməsi imkanlarını azaldır və nəticədə sosial dayanıqlılıq pozulur (Weiler & Ham, 2002).

Həmçinin donor müdaxiləsi zamanı qərarvermə prosesinin yerli səviyyədə deyil, kənardan idarə olunması və layihə gündəminin donor prioritetlərinə uyğun qurulması, icma ehtiyaclarını ikinci plana keçirir. Bu səbəbdən, İƏT layihələrinin davamlı uğuru üçün donor təşkilatların yerli tərəfdaşlarla real əməkdaşlıq əsasında

işləməsi, qərarların icma ilə birlikdə verilməsi və proseslərin “mülkiyyət hissi”ni formalaşdıracaq şəkildə dizayn olunması vacibdir.

Keniyada icma əsaslı turizmin tətbiqi, qarşılaşılan çətinliklərin praktik olaraq ortaya çıxması baxımından əhəmiyyətli nümunə təşkil edir (Honey, 2008).Bu ölkədə 1980-ci illərdən etibarən həyata keçirilən community-based tourism enterprises (CBTE) layihələri ilkin mərhələdə yerli əhalinin sosial-iqtisadi rifahında müsbət təsirlər yaratmışdır. Lakin aparılan tədqiqatlar göstərir ki, bu layihələrdə davamlı idarəetmə və maliyyə dayanıqlılığı ciddi problemlərlə qarşılaşmışdır (Manyara & Jones, 2007). İcmalarda liderlik və strateji planlaşdırma imkanlarının zəif olması, turizm bazarına çıxış imkanlarının məhdudluğu, marketinq strategiyalarının olmaması və resursların qeyri-bərabər bölüşdürülməsi CBTE-lərin bir çoxunda dayanıqlı fəaliyyətin təmin edilməsinə imkan verməmişdir.

Bundan başqa, bir sıra CBTE layihələrində qərarların cəmlənmiş şəkildə bir neçə şəxsin nəzarətində olması, daxili şəffaflığın və hesabatlılığın olmaması, icma daxilində narazılıqlar və inamsızlıq yaratmışdır. Bu isə təşəbbüslərin uğuruna və davamlılığına mənfi təsir göstərmişdir. Kenya təcrübəsi göstərir ki, icma əsaslı turizmin uğur qazanması yalnız maliyyə və təbii resursların mövcudluğundan deyil, həm də sosial strukturun və idarəetmə mexanizmlərinin keyfiyyətindən asılıdır. Bu təcrübə eyni zamanda digər ölkələr üçün, o cümlədən Azərbaycan üçün də qiymətli öyrənmə materialıdır, çünki ümumi çətinlikləri və onların nəticələrini konkret nümunə üzərindən dəyərləndirməyə imkan verir.

Azərbaycanın zəngin təbii, mədəni və etnoqrafik resursları, coğrafi müxtəlifliyi və qədim kənd yaşayış formaları icma əsaslı turizmin inkişafı üçün əlverişli imkanlar yaratsa da, bu potensialın reallaşması qarşısında bir sıra sistemli və struktur xarakterli çətinliklər dayanır. İlk növbədə, yerli icmaların turizm resurslarına hüquqi sahiblik imkanlarının məhdudluğu, bu sahədə normativ hüquqi bazanın qeyri-dəqiqliyi və təşəbbüslərin rəsmi statusu ilə bağlı qeyri-müəyyənliklər onların aktiv və müstəqil

şəkildə bu prosesə qoşulmasını çətinləşdirir. Məsələn, icmaların istifadə etdiyi torpaq və digər təbii resursların dövlət mülkiyyətində olması, yerli əhaliyə sahiblik və idarəetmə hüququnun verilməməsi ilə nəticələnir. Nəticədə, yerli sakinlər turizm fəaliyyətlərində daha çox icraçı və xidmət təminatçısı kimi rol oynayırlar, təşəbbüskar mövqedə deyillər (Fabricius et al., 2001).

Bu isə gəlir bölgüsündə ədalətsizlik yaradır və icmaların uzunmüddətli motivasiyasını zəiflədir (Salmanova, 2020).

Bundan əlavə, yerli səviyyədə turizm sahəsində fəaliyyət göstərmək üçün tələb olunan qeydiyyat, lisenziyalaşma və vergi prosedurlarının mürəkkəb və maliyyətli olması da icmaların formal təşəbbüslərə çevrilməsinə əngəl törədir. Bu problemlər qeyri-rəsmi fəaliyyətlərin artmasına səbəb olur ki, bu da həm hüquqi baxımdan qeyri-dayanıqlılıq yaradır, həm də turizm xidmətlərinin keyfiyyətinə mənfi təsir göstərir.

Azərbaycanda İƏT sahəsində digər mühüm problem bacarıq və bilik çatışmazlığı ilə bağlıdır. Xüsusilə regionlarda yaşayan əhali turizm menecmenti, xidmət mədəniyyəti, müştəri ilə ünsiyyət, marketinq, ekoloji təcrübələr və xarici dillər sahəsində yetərli bilik və bacarıqlara malik deyil. Bu sahədə dövlət və qeyri-dövlət qurumlarının təşkil etdiyi təlimlərin sayı və keyfiyyəti kifayət etmir və ya icmalara çatmır. Nəticədə, turizm fəaliyyəti potensialı olan, lakin kadr və texniki resurs baxımından zəif olan icmalar bu prosesdə passiv iştirakçıya çevrilirlər. Məsələn, Şəki-Zaqatala, Qarabağ və Naxçıvan bölgələrində xalq sənətkarlığı, yerli qastronomiya, kənd təsərrüfatı və folklor kimi unikal resurslar mövcuddur. Lakin bu resursların turizm məhsuluna çevrilməsi, satış və marketinq imkanlarının qurulması üçün lazımi struktur və bilik bazası əksər hallarda mövcud deyil (Salmanova, 2020).

İnfrastrukturun inkişaf səviyyəsi də İƏT-nin genişlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Kənd və dağlıq ərazilərdə yol, nəqliyyat, rabitə, internet, su təchizatı və elektrik enerjisi kimi əsas infrastrukturun zəif inkişaf etməsi turistlərin həmin bölgələrə səfərini çətinləşdirir. Bununla yanaşı, ictimai nəqliyyatın olmaması,

təcili tibbi yardım və təhlükəsizlik xidmətlərinin zəif təşkili kimi amillər də turizmin dayanıqlığına mənfi təsir göstərir. Turistlərin rahat və təhlükəsiz səyahət təcrübəsi ala bilməməsi, mənfi rəy formalaşmasına və gələcəkdə bölgəyə marağın azalmasına səbəb olur.

Sosial səviyyədə də bir sıra problemlər müşahidə olunur. Bir çox icmalarda turizmlə bağlı maariflənmə aşağı səviyyədədir və bu sahədə geniş yayılmış stereotiplər mövcuddur. Əhali arasında turizmə qarşı ehtiyatlı və bəzən mənfi münasibət müşahidə olunur ki, bu da İƏT təşəbbüslərinin qəbuluna və dəstəyinə mane olur. Belə yanaşmanın əsas səbəblərindən biri, turizmin yerli mədəniyyətin kommersiyalaşması, ətraf mühitin çirklənməsi və sosial münasibətlərin pozulması kimi neqativ təsirlər doğuracağına dair yaranan narahatlıqlardır (Scheyvens, 2002).Beləliklə, icma əsaslı turizmin tətbiqində qarşıya çıxan çətinliklər təkcə iqtisadi və infrastruktur problemləri ilə məhdudlaşmır, eyni zamanda institusional hazırlıqsızlıq, sosial inklüzivliyin zəifliyi və koordinasiya çatışmazlığı kimi çoxşaxəli amillərlə sıx bağlıdır. Həm beynəlxalq təcrübə, həm də Azərbaycanın mövcud reallıqları göstərir ki, İƏT təşəbbüslərinin dayanıqlı və ədalətli şəkildə həyata keçirilməsi üçün sistemli yanaşmalar, hüquqi və təşkilati islahatlar, eləcə də yerli icmaların səlahiyyətləndirilməsi və biliklərinin artırılması vacibdir.

## 3.2. İcma Əsaslı Turizmin Tətbiqi ilə Bağlı Beynəlxalq Təcrübə və Azərbaycanda İnkişaf Perspektivləri

İƏT anlayışının mənşəyi Murphy (1985) tərəfindən təklif edilən turizmdə iştirakçı yanaşmadan qaynaqlanır. O, turizmin yalnız iqtisadi deyil, sosial strukturları da dəyişdirdiyini və bu səbəbdən icmanın turizm prosesində mərkəzi aktor kimi çıxış etməsinin zəruri olduğunu vurğulamışdır. 1990-cı illərin sonlarından etibarən bu yanaşma daha da inkişaf etdirilərək müxtəlif regionlarda ekoturizm, aqroturizm,

mədəniyyət turizmi, ailə yanında qalmaq (homestay) və kənd turizmi formatında tətbiq olunmağa başlamışdır (Suansri, 2003; Blangy & Mehta, 2006).

İƏT modelinin uğuru bir neçə amildən asılıdır: icmanın təşəbbüskarlığı, hüquqi çərçivənin mövcudluğu, şəffaf maliyyə idarəçiliyi, davamlı təlim-tədris proqramları və yerli-milli səviyyədə institusional dəstək (Mgonja et al., 2015; Schroeder, 2015). Turizm fəaliyyətləri yalnız xarici turist axını ilə ölçülməməli, həm də yerli əhalinin rifahına, öz mədəniyyətlərinə sahib çıxmalarına və təbii ehtiyatlar üzərində nəzarət imkanlarının artırılmasına yönəlməlidir (Boo, 1991; Duffy, 2002).

Bir çox ölkələrin təcrübələri göstərir ki, İƏT modeli iqtisadi inkişafın sosial və ekoloji komponentlərlə uzlaşdırılmasında unikal imkanlar təqdim edir. Keniya, Tanzaniya, Braziliya, Kanada, Laos, Çin və Xorvatiya kimi müxtəlif sosial-iqtisadi kontekstə malik ölkələrdə bu model fərqli formalarda tətbiq olunmuş və maraqlı nəticələr doğurmuşdur. Hər bir regionun özünəməxsus sosial strukturu, hüquqi sistemi və mədəniyyətinə əsaslanan bu təcrübələr Azərbaycanın da öz şəraitinə uyğun olaraq İƏT modelini qurmasına real əsas yaradır.

Azərbaycan zəngin mədəni irsi, müxtəlif iqlim zonaları və təbii ehtiyatları ilə yanaşı, qədim kənd yaşayış formaları və sənətkarlıq ənənələrini mühafizə edən ölkələrdən biridir. Bu çərçivədə, İcma Əsaslı Turizm (İƏT) modeli yalnız turizmin inkişafını deyil, həm də yerli icmaların sosial-iqtisadi fəaliyyətinin gücləndirilməsini, kəndlərdə işsizliyin azaldılmasını, mədəni dəyərlərin kommersiyalaşmadan qorunmasını və ekoloji sistemlərin davamlı idarəsini təmin edə bilər (Qurbanov, 2020; Əliyev, 2018).

Növbəti bölmələrdə bu modelin müxtəlif qitələrdə və ölkələrdə tətbiqinə nəzər salınacaq, uğurlar və çağırışlar təhlil olunacaq, və ən əsası, bu təcrübələrin Azərbaycana nə dərəcədə uyğun gəldiyi, hansı dərslərin çıxarıla biləcəyi və hansı mexanizmlərlə həyata keçirilə biləcəyi təklif olunacaq.

Afrika qitəsində icma əsaslı turizm (İƏT) modeli xüsusilə kənd və təbii ehtiyatlarla zəngin, lakin iqtisadi cəhətdən geridə qalmış bölgələrdə sosial-iqtisadi inkişafın təşviqi və ekoloji dəyərlərin qorunması vasitəsi kimi tətbiq olunmuşdur. Bu kontekstdə Keniya və Tanzaniya regionun ən mühüm nümunələrini təşkil edir.

Keniya, İƏT sahəsində aparıcı ölkələrdən biri hesab olunur. Burada yerli icmaların turizmdən birbaşa faydalanması üçün bir sıra təşəbbüslər həyata keçirilmişdir.Keniya İcma Əsaslı Turizm Şəbəkəsi (KECOBAT) kimi qurumlar vasitəsilə dövlət və qeyri-hökumət sektorları əməkdaşlıq edərək yerli əhali ilə birgə safari turları, kənd mədəniyyəti, sənətkarlıq və vəhşi təbiət müşahidəsi kimi turizm fəaliyyətləri təşkil etmişlər (Juma & Khademi-Vidra, 2019).

Bu təşəbbüslər eyni zamanda ekoloji maarifləndirmə və təbiətə hörmət kimi dəyərlərin formalaşdırılmasına yönəlmişdir.

Tanzaniya təcrübəsi də bu baxımdan oxşar kontekstə malikdir. Burada İƏT modeli əsasən milli parkların ətrafında yerləşən kənd icmalarında tətbiq olunmuşdur. Bu yanaşma, təbii ehtiyatların qorunması ilə sosial-iqtisadi rifah arasında balans yaratmaq məqsədi daşıyır. Məsələn, Mgonja və digərləri (2015) göstərir ki, Tanzaniyada icmalara yönəlik turizm təşəbbüsləri təbiətə dəyər verən bir yanaşma formalaşdırsa da, bəzən qərarvermədə qeyri-şəffaflıq və gəlir bölgüsündə ədalətsizlik narazılıqlara yol açmışdır.

Bu iki ölkənin təcrübələri göstərir ki, uğurlu İƏT modeli üçün yalnız təbii resursların mövcudluğu yetərli deyil. Əsas həlledici faktorlar- yerli icmanın təşəbbüskarlığı, şəffaf idarəetmə, yerli institusional çərçivələrin gücü və gəlirlərin ədalətli bölgüsüdür (Akama və Kieti, 2007).

Cənubi Amerikada Braziliya, icma əsaslı turizmin sosial inklüzivlik və mədəni irsin qorunması baxımından uğurla tətbiq olunduğu nadir nümunələrdəndir. Ölkədə xüsusilə kənd yerlərində və Amazon bölgəsi ətrafında həyata keçirilən İƏT layihələri,

qadınların, yerli və yerli etnik qrupların turizmdə aktiv iştirakını təşviq etməklə yanaşı, icmanın sosial strukturunu da gücləndirmişdir (Schroeder, 2015).

UNWTO (2021) bildirir ki, Braziliyada İcma Əsaslı Turizmin (İƏT) uğurlu tətbiq edildiyi bölgələrdə aşağıdakı əsas şərtlər təmin olunmuşdur: icmanın bütün təbəqələrinin, o cümlədən qadınlar, gənclər və etnik azlıqların iştirakına açıq strukturun mövcudluğu; mədəni və təbii resursların turizm fəaliyyətləri ilə uyğun şəkildə inteqrasiyası; habelə dövlət və bələdiyyə orqanlarının təlim və maddi dəstək verməsi (UNWTO, 2021).

Braziliya təcrübəsi göstərir ki, turizm fəaliyyəti yalnız iqtisadi gəlir mənbəyi olmaqla qalmayıb, həm də mədəni identiklik və sosial kapitalın möhkəmləndirilməsi üçün mühüm vasitə kimi istifadə olunur (UNWTO, 2021).

